Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Könlüm şeir istəyir...

**Nəriman Həsənzadənin 85 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2016**

Tərtibçi: **Könül Səmədzadə**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**Könlüm şeir istəyir:** N. Həsənzadənin 85 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodiki vəsait /tərt. ed. K.Səmədzadə; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 36 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası**

**2016**

## Tərtibçidən

Bu gün biz Xalq şairi Nəriman Həsənzadə haqqında danışacağıq. Nəriman Həsənzadə haqqında danışmaq ümumən müasir Azərbaycan poeziyası barəsində danışmaq deməkdir. Nəriman Həsənzadə, böyük Səməd Vurğundan sonrakı dövrün ən gözəl şairlərindəndir; şeirində də, nəsrində də, dramaturgiyasında da, hətta publisistikasında da o məhz şairdir. N. Həsənzadə oxucusunu çoxdanın dostu, tanışı və ürək sirdaşı kimi dindirir. Onu sevincinə, arzusuna, kədər və həyacanına şərik etməyi bacarır.

N. Həsənzadə nədən yazırsa yazsın, onun kökü Azərbaycan torpağı ilə bağlıdır. Bəli, Azərbaycan xalqının ağrılı-acılı günləri çox olmuşdur. Dərdlərimiz saysız, tükənməz olmuşdur, mübarizə əzmimiz, eşqimiz isə heç vaxt sönməmişdir. Şair öz döyüşkən qələmi ilə hər vaxt ön səngərdə durmuş, bir çox hallarda zamanı qabaqlamışdır. Bəli, elə Xalq şairi Nəraiman Həsənzadə yaradıcılığına müraciət etməkdə məqsədimiz oxucuları gözəl insanla yaxından tanış etmək, onlarda şairin poeziya janrına olan marağını daha da artırmaqdır .

# Həyat və yaradıcılığı:



İnsan Allahın ona bəxş etdiyi ömrü şərəflə yaşamaq üçün bu dünyaya gəlib. Bu şərəfi daşımaq adi insanın adi borclarından biridir. Həmçinin, insanın içində daima bir ölməzlik arzusu, ölməzlik istəyi də həmişə mövcuddur. Həyatda həm şərəflə yaşamaq, həm də ölməzlik qazanmaq səlahiyyəti isə sənət adamlarının, sənətkarların çiyninə düşən, ən şərəfli insanlıq, həm də yaradıcılıq yüküdür...

Azərbaycan poeziya tarixində, xüsusilə XX əsrin Azərbaycan şeirində bu cür sənətkarlar sırasında Xalq şairi Nəriman Həsənzadənin özünəməxsus, hər tərəfdən görünən bir insan, bir şair şəxsiyyəti vardır. Hərdən adama elə gəlir

ki, “insanı ölümsüzliyə” qovuşduran “dirilik suyu” elə, sənətin bulağından axan büllur, saf, bütün könüllərin yanğısını söndürən “dirilik suyudur...”

Və belə bir “dirilik suyu” bulağı Nəriman Həsənzadənin poeziya ilə sevdalanan könül bulağından 60 ildən artıq bir müddətdir ki, axmaqdadır, çağlamaqdadır...

Kim nə düşünür-düşünsün, poeziya şairin həyatından, tərcümeyi-halindan keçən işıqlı, nurlu bir yoldur. Nəriman Həsənzadənin şair şəxsiyyətində sözə sahib çıxan kəslərin işığı, nuru var. Əsrlər boyu böyük şəxsiyyətlərdən, ustad sənətkarlardan öz dövrünün, lap həmyaşlarının, qələm dostlarının hərəsindən bir zərrə qopub onun poetik şəxsiyyətinə hopan bir işıq. Bir nur...Və bu hər kəsə nəsib olmur.

Azərbaycanın Xalq şairi, Əməkdar incəsənət xadimi, Beynəlxalq Elmlər Akademiyasının akademiki, şair, dramaturq, nasir, publisist Nəriman Həsənzadə 85-illik ömründə qazandığı bu keyfiyyətlərlə bu nuru daşımış, çətin, ağır, şərəfli yaradıcılıq yükünü sənətin pillələri ilə məxsus olduğu yüksəkliyə qaldıra bilmişdir.

Belə baxanda, onun bir insan və şair kimi həyatını nəzərdən keçirəndə Nəriman Həsənzadə xoşbəxt şairdir.

İlk orta təhsildən tutmuş ali təhsilin müxtəlif yüksək məqamlarına çatmış, Gəncə Dövlət Peadaqoji İnstitutunun filologiya fakültəsini bitirmiş (1949-1953), Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunda ikinci ali təhsil almış (1961), Moskvada iki illik Ali Ədəbiyyat Kurslarında oxumuş, Azərbaycan Dövlət Universitetinin “Azərbaycan ədəbiyyatı tarixi” kafedrasının aspirantı olmuş (1962-1965), “Azərbaycan-Ukrayna ədəbi əlaqələri” mövzusunda

dissertasiya müdafiə edərək (1965) filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Onun yaradıcılığındakı tarixi axtarışlar, alimanə düşüncələr, poetik hissin bir alim düşüncə sahibi kimi tədqiqi və onu ürəyin "marten sobası"nda əridib şeirə çevirməsi, xüsusən tarixi mövzularda yazdığı poema və pyeslərində alim-tədqiqatçı və sənətkar səriştəsinin qovuşuğu məncə, məhz bu ali təhsil və bilik dünyasından keçən həyatın nəticəsidir.

Nəriman Həsənzadə "balıq okeanda böyüyər" prinsipinə əməl etmiş, həmişə Azərbaycan ədəbi fikrinin, poetik, düşüncəsinin, ədəbiyyat okeanının mərkəzində olmuş, müxtəlif vəzifələrdə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, Azərbaycan ədəbiyyatının ictimai-sosial həyatına ləyaqətlə xidmət etmişdir. Televiziya və Radio Verlişləri Komitəsində böyük redaktor, "Gənclik" nəşriyyatında redaktor, "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" ədəbi yurnalında şöbə müdiri (1962- 1975) işləyəndə də, uzun müddət "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru (1978-90), Azərbaycan mətbuat və informasiya nazirinin birinci müavini və naziri əvəzetmə vəzifələrində (1991-2001) çalışanda da...

O, Azərbaycan Yazıçılar İttifaqının (1954), Azərbaycan Yazıçılar İttifaqının ilk partiya təşkilatının katibi (1972-1978), dəfələrlə Bakı şəhərinin rayon sovetinin, Bakı şəhər sovetinin (1978), sonralar Azərbaycan xalq deputatı (1991-1995) seçilmiş, Ədəbiyyat fondunun direktoru olmuş, "Şərəf nişanı", "Şöhrət" ordenlərinə və fərdi Prezident təqaüdünə layiq görülmüşdür.

Bəli, şərəfli, çoxlarına nəsib olmayan bir ömür. Bu şair-sənətkar, alim, dramaturq, publisist Nəriman Həsənzadə ömrünün görünən tərəfləridir. Gəlin birlikdə şair ömrünün görünən və görünməyən tərəflərini bir daha nəzərdən keçirək...

## BÖLMƏ II:

### Yubiley tədbirlərinin keçirilməsi:

***Bir şair ömrünü yaşatmaq üçün***

***Bir insan ömrünü girov qoymuşam...***

Əlinə qələm alandan ümidlərini şeh kimi misralara ələyərək onu çiçək, gül ətrində təqdim etməyi bacaran xalq şairi Nəriman Həsənzadə yazlı-payızlı ömrünün 85-ci ilini tamamlamaqdadır. Öz sözləri ilə desək: "İnsan ömrünün təkcə ili yox, anı da tarixi bir hadisəymiş." Elə bu məqamda unudulmaz şair Səməd Vurğunun "Şair, nə tez qocaldın sən?!" misraları adamı üşütsə də, Nəriman müəllimin şux yerişi, şax duruşu həmişə göz önünə gəlir.

Bədii sözün ləyaqət bayrağını bütün yaradıcılıq boyu ucalarda saxlayan Nəriman Həsənzadə oxucu ürəyinə yol tapan, həzin, lirik misraları ilə hər kəsin könül çırpıntısına öz qəlbinin döyüntüsünü də qoşaraq insanlarda xoş

duyğular, intibahlar oyadan, min köhnəliyin içində min bir təzəlik yaradan görkəmli söz ustasıdır.

Nəriman Həsənzadə əslində xoşbəxt qələm sahibidir. Illərdir ki, onun əsərləri sevilə-sevilə oxunur, rəğbətlə qarşılanır, dillər əzbərinə çevrilir, sözlərinə musiqi libası geyindirilir. Mənzum dramları müxtəlif tamaşaya qoyulur. Ömrünü söz sənətinə bağlayan, ilhamının sayəsində bir-birindən maraqlı əsərlərə imza atan Nəriman Həsənzadə Azərbaycan poeziyasının zənginləşməsində özünəməxsus xidmət göstərir. Bəli, elə bu poeziyanın özünəməxsus tərəflərini görmək üçün bu gün biz Nəriman Həsənzadə yaradıcılığına müraciət etmişik.

Nəriman Həsənzadə yaradıcılığı geniş və rəngarəng olduğundan bəzən onu necə təqdim etməkdə çətinlik çəkirsən. Görkəmli şair, yoxsa ləzif nasir, yaxud da dramaturq, ya bəlkə də gözəl nəğmələr müəllifi?

Bəli, bu gün biz görkəmli şair, dramaturq, istedadlı müəllim və sonda gözəl insan Nəriman Həsənzadənin 85 illik yubileyini qeyd edirik. Yubiley münasibətilə respublikamızın bir çox təhsil ocaqlarında məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda və s. tədris müəssələrində bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Həmçinin F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da geniş tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının maraqlı olması üçün Nəriman Həsənzadənin yaradıcılığını əks etdirən bukletlərin hazırlanması yerinə düşər. Bu bukletlər kitabxananın xidmət şöbəsi və oxu zalında hazırlanmış stendlərdə öz əksini tapır. Kitabxanada ilk əvvəl yubilyar haqqında foto

sərgi, kitab sərgisi hazırlamaq olar. N. Həsənzadənin yaradıcılığı ilə bağlı hazırlanmış sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Nəriman Həsənzadə-85”, “Taleyinə şairlik yazılmış Nəriman Həsənzadə”, “Çiçək nəfəsli”, “Nərimanlı dünya”, “Zirvələr gözləyir”, “Təravətli, xoş niyyətli”, “Şairin inam nəğməsi”, “Etiraflar poeziyası” və s. İndi isə “Nəriman Həsənzadə-85” adlı sərginin nümunəsini veririk.

**Başlıq.**

1. **“Nəriman Həsənzadə-85”**
2. Nəriman Həsənzadənin kitablarının nümayişi.
3. Görkəmli insanların Nəriman Həsənzadə haqqında söylədikləri sitatlar.
4. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
5. Şeir parçası
   Şeir yazdığım gün məğrur oluram,
   Ilham ki, xəfifcə sinəmə dolur;
   Bir şeh damlasıtək büllur oluram,
   Dünya dünyada yox, məndə əks olur...

**Kitablarının nümayişi:**


Нəриман
ҺƏСƏНЗАДƏ
Мəним
никаhымы
позду
тəбиəт


NƏRİMAN
HƏSƏNZADƏ
Gəlimli
-gedimli
dünya


MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI
NƏRİMAN
HƏSƏNZADƏ
Seçilmiş əsərləri


Nəriman
HƏSƏNZADƏ
NİZAMİ


Нәриман Һәсәнзадә
СӘН
БАҒЫШЛАДЫН


НӘРИМАН
ҺӘСӘНЗАДӘ
БҮТҮН
МИЛ-
-ЛӘТ-
ЛӘРӘ


Нәриман
Һәсәнзадә
НАБАТ
халанын
чөрәји


Нәриман Һәсәнзадә
Набат халанын
чөрәји


НӘРИМАН


Н. ҺӘСӘНЗАДӘ
НИЈӘ ДЕМӘДИНИЗ


Нәриман
Һәсәнәлизадә
ИЛЛӘР, СӘНДӘ
НӘЈИМ ГАЛДЫ


Нәриман
Һәсәнзадә
Талејин
Төһфәси










**Görkəmli şəxsiyyətlər Nəriman Həsənzadə haqqında:**

1. Nərimanın şeirlərini oxuduqca biz belə qənaətə gəlirik ki, sənət əsəri, xüsusən lirik şeir o zaman adamı əfsunlayır ki, həyat, təbət bu insanlar haqqında, onların bitməz-tükənməz işığı, qaranlığı,

gözəlliyi, eybəcərliyi, sevinc və faciələri barədə oxucuya nə isə yeni bir şey deyir. Onu bu vaxta qədər bilmədiyi, duymadığı, xəyalına da gətirmədiyi qəribə hisslərlə, duyğularla tanış edir, dərin fəlsəfi mənalar və füsunkar gözəlliklər aləminə aparır, fikrini, düşüncəsini bu aləmin sirlərini dərk etməyə yönəldir.

**Mirzə İbrahimov**
**Xalq şairi**

2. Əziz dostum Nəriman Həsənzadə "Kimin sualı var" poemasını yazıb başa çatdırmışdır. Məhz başa çatdırmışdır. Uzun illər boyu mətbuat səhifələrində fəsil-fəsil, diqqət və maraqla izlədiyimiz iri həcmli, geniş əhatəli poemaya son nöqtə qoyulmuşdur. Elə bil tufanlı, təlatümlü dənizdə uzaq və sirli müəmmalı səfərə çıxmış bir gəmi böyük bir ləngərlə öz limanına qayıtmışdır. Bu yetmişinci illərin əks-sədasıdır...

**Nəbi Xəzri**
**Xalq şairi**

3. N.Həsənzadənin şeirlərindən mən həmişə həzz almışam. Onun şeirlərində həmişə ürək döyünür. Çünki oxucusu ilə o ürək dilində danışır.

Ürək dili nədir? Səmimiyyət!

Onun şeirləri həmişə məni isidib, həmişə düşündürüb, görə bilmədiklərimi mənə göstərib.

**Bəxtiyar Vahabzadə**

**Xalq şairi**

4. Nəriman Həsənzadə fikir və məna şairidir, onun saglam, büllur poeziyasının çox dərin qatlarında çağdaş Azərbaycan varlığının çox ciddi münaqişələri dilə gəlir, alovları şölə saçır, sevinc və iztirabları, ümid və qayğıları çırpınır. Buna görə bu poeziya bədii idrak əhəmiyyətinə, öyrənilməyə, araşdırılmağa tam layiqdir, bədii-estetik tərbiyə, kamilləşmə vasitəsidir.

**Xəlil Rza Ulutürk**
**Xalq şairi**

5. N. Həsənzadə təpədən dırnağa söz adamıdır; nəsrində də, dramaturgiyasında da adi çıxış və məqalələrində də şairdi: sözün səsinə qulaq verən, bu səsi sərištəli şəkildə müəyyən insanlara yola salan və əks-səda kimi qarşılanan, sözdən əsgəri borcunu necə yerinə yetirdiyi barədə hesabat istəyəndir...

**Məmməd Araz**
**Xalq şairi**

6. Nərimanın şeirləri danışıq dilinə yaxın, sadə, səlis üslubu ilə seçilib. Adama elə gəlir ki, bunlar yazılmır, söylənilir. Kitabdan, rəsmiyyətdən uzaq, ürəkdən gələn şirin, maraqlı bir söhbətdir.

**Mir Cəlal**
**Xalq şairi**

7. O təkcə şeirində, nəsrində, dramaturgiyasında, publisistikasında deyil, adi məişətdə də böyük şairdir.

**Nizami Cəfərov**
**Professor, Əməkdar elm xadimi**

Ömrünün 85-ci ildönümü yenicə tamam olan xalq şairi Nəriman Həsənzadənin əsərlərində bitib-tükənməyən torpaq sevgisi, Vətən və millət məhəbbəti daim bahar təravəti saçır. Onun irihəcmli dram əsərlərində, poema və lirik şeirlərində canından çox sevdiyi xalqının tarixi keçmişi, bu günü, sevinc və acıları əks olunmuşdur. Şairin “Atabəylər”, “Cavid”, “Nəriman”, “Midiya”, “Zümrüd quşu”, “Qaçaq Kərəm”, “Pompeyin Qafqaza yürüşü”, “Qafqaz” kimi əsərlərində Azərbaycanın müxtəlif dövrlərinin tarixi həqiqətləri bədii salnaməyə çevrilmişdir.

Bugünkü Azərbaycan poeziyasının keyfiyyətcə hansı səviyyədə olmasının məsuliyyətini birinci növbədə böyük yaradıcılıq təcrübəsinə malik sənətkarlardan biri kimi Nəriman Həsənzadə də daşıyır.

Nəriman Həsənzadə yaradıcılığının keşməkeşli həyat yolunu bir daha nəzərdən keçirmək üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında şairlə görüşün təşkil olunması məqsədəuyğundur. Kitabxanada təşkil olunan görüşə bir çox sair və yazıçılarla yanaşı, ədəbiiyatşünasları, tənqidçiləri, fəal oxucuları dəvət etmək olar. Kitabxanaçı şair Nəriman Həsənzadəni kitabxanaya dəvət edir. İlk əvvəl N. Həsənzadə kitabxana ilə yaxından tanış olur. Daha sonra o, oxu zalında təşkil olunan “Taleyin töhvəsi “ adlı tədbirə dəvət olunur.

Tədbir şair, dramaturq Nəriman Həsənzadənin həyat və yaradıcılığını əks etdirən slaydla başlayır. Tədbirin giriş

hissəsini açmaq üçün söz F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərovaya verilir.

Əziz və hörmətli tədbir iştirakçıları! Sizi və hörmətli şairimiz N. Həsənzadəni tədbirimizdə görməyimizə çox şadıq.

Hörmətli Nəriman müəllim! Sizi anadan olmanızın 85 illiyi münasibətilə kollektivimiz və öz adımdan ürəkdən təbrik edirəm.Yarım əsrdən artıqdır ki, sizin imzanız oxucularımıza tanışdır. Siz bədii yaradıcılığa 1953-cü ildə "Azərbaycan gəncləri" qəzetində dərc etdiyiniz şeirlə başlamısınız. Həmin vaxtdan şeirləriniz müxtəlif ədəbi orqanlarda, toplularda ardıcıl dərc olunmuşdur. "Yadına düşəcəyəm", "Nəriman", "Zümrüd quşu", "Mənim gecəm-gündüzüm, "Bir az möhlət istəyirəm ömürdən", "Nabat xalanın çörəyi", "Bütün millətlərə", "Taleyin töhvəsi" və başqa kitablarınız oxucular və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Əsərlərinizdə həyatımızın rəngarəng bədii lövhələri, insanların mənəvi-psixoloji dünyası yüksək sənətkarlıqla qələmə alınmışdır. Sizin yaradıcılığınız şəxsi həyacan, duyğu və düşüncələrinizin tərənnümü, bizi əhatə edən aləmin şairanə ifadəsidir. Vətənə, xalqa, gözəlliyə, tarixi keçmişimizə, müasir həyatımıza, təbiətə münasibət sizin lirikanızın əsasını təşkil edir.

Siz dramaturgiya sahəsində də çalışırsınız. "Bütün Şərq bilsin", "Atabəylər", və başqa pyesləriniz Azərbaycan teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Bu mənzum dram əsərlərində Azərbaycan xalqının ən qədim dövrlərindən bu günə qədər keçdiyi mübarizələrlə dolu məşəqqətli, lakin şərəfli yol öz bədii əksini tapmışdır.

Oxucular səhnəyə daxil olur. “Nərdivan” adlı şeiri söyləyirlər.

**Bu dünya nərdivandı,**
**qalxanda mehribandı,**
**enəndə nə yamandı...**
**Görüşdük pillələrdə,**
**Yolun yarısında biz.**
**Sən qalxırdın bu dəmdə,**
**Mən enirdim xəbərsiz.**
**Səni arzularına**
**Qaldırırdı nərdivan.**
**Məni xatirələrə**
**endirirdi bu zaman.**
**Birimiz günçıxana,**
**birimiz günbatana.**
**Qalxa bilməzdim daha,**
**Nə o güc, nə o taqət.**
**Sən də enə bilməzdin,**
**Haqlı, haqsız vermişdi**
**Öz hökmünü təbiət.**
**Gərək ya düşməyəydi**
**bu görüş heç araya,**
**Ya sən əvvəl gələydin,**
**ya mən sonra dünyaya.**

Sonra söz şair Nəriman Həsənzadəyə verilir. N. Həsənzadə öz yaradıcılıq planlarından danışdıqdan sonra, oxucuların suallarına cavab verir və tədbirin təşkilinə görə öz təşəkkürünü kitabxananın müdriyyəti və kollektivinə

bildirir. Tədbirin sonunda şair “Kitabxanaçı” şeirini söyləyir.

**Limon xanım gözəl-göyçək**
**Kitabxana işçisiydi.**
**İşçilərin incisiydi,**
**bəlkə lap birincisiydi.**

**Qara uzun hörüyünü**
**Gah açardı, gah yığardı.**
**Açanda biz tanımazdıq,**
**yığanda biz darıxardıq.**

**Oxu zalı işıqlıydı,**
**Ütülüydü ag pərdələr.**
**Oxucusu aspirantlar,**
**Müəllimlər, tələbələr.**

**Kitabları gətirərdi,**
**Yoxlayardı sifarişi.**
**Biz oxuyub qurtarardıq,**
**Qurtarmazdı onun işi.**

**Müdriyyət çağırsaydı,**
**Bizdən izn istəyərdi.**
**Sevinəndə bölüşərdi,**
**qəmlənəndə gizlədərdi.**

**Limon xanım.**
**Bəli buyur.**

**Limon xanım, filan kitab.**
**Stol üstə qoyulardı,**
**Toz altında qalan  kitab.**

**Çağırmamış gedər-gələr,**
**əli işdən soyumazdı.**
**Oturmaqdan biz bezərdik,**
**Işləməkdən o doymazdı.**

**Dodaqaltı deyinərdi,**
**yəqin bir ehtiyat üçün:**
**gizlin kəsib aparırlar**
**qəzetləri sitat üçün.**

**Tariximiz çıxır yoxa,**
**Sonuncu xəbər itirdi.**
**Müəllimlər pıçıldaşır,**
**aspirantlar eşidirdi.**

**Ali məktəb diplomunun**
**Qazancı az, yeri dardı.**
**Bir təşəkkür eşitsəydi,**
**Neçə sagol, qaytarardı.**

**Oxudular, dagıldılar,**
**Hərəsi bir alim oldu.**
**Bu, elmlər namizədi,**
**O, əməkdar xadim oldu.**

**Unuduldu Limon xanım,**

**Unuduldu kitabxana.**
**Biri təbrik göndərmədi**
**Ad günündə o qadına.**

**Saç ağardı Limon xanım,**
**Eynək taxdın ala gözə.**
**Çağır Aşıq Ələsgəri,**
**"Yandı bağrım, döndü közə".**

Tədbirin sonunda F. Köçərli adına Respublika Uşaq Kitabxanasının müdriyyəti və kitabxanaçılar, oxucular şairə öz təşəkkürlərini bildirir, onunla şəkil çəkdirir və avtoqraf alırlar.

Xalq şairi, "Şöhrət ordenli", Prezident təqaüdçüsü, Əməkdar incəsənət xadimi Nəriman Həsənzadə illərdir ki, oxucuların ən çox sevdiyi və müntəzəm oxuduğu xoşbəxt qələm sahiblərindən biridir.

Nəriman Həsənzadənin yaradıcılığı o qədər geniş və rəngarəngdir ki, bəzən çətinlik çəkirsən ki, bu şairi necə təqdim edəsən. Görkəmli şair, nasir və yaxud dramaturq, və yaxud da gözəl nəğmələr müəllifi? Elə bu sualları biz bu gün yubileyini təmtəraqla kecirdiyimiz Nəriman Həsənzadə oxucularına ünvanlayacağıq.

Kitabxanada "Ən çox sevdiyim şair" adlı sual-cavab gecəsi keçirilir.

1. ☺ Sual: Nəriman Həsənzadəni necə tanıyırsınız?
   Cavab: Biz oxucular N. Həsənzadəni müasir Azərbaycan ədəbiyyatının tanınmış və seçilən nümayəndəsi kimi, nəğməkar şair kimi, dramaturq, gözəl və xeyirxah bir insan kimi tanıyırıq.

2. ☺ Sual: N. Həsənzadə neçənci ildə və harada anadan olmuşdur?

N. Həsənzadə 1931-ci ildə Ağstafa rayonunun Poylu qəsəbəsində anadan olmuşdur.

3. ☺ Sual? N. Həsənzadənin neçə yaşı tamam olur?

Cavab: 2016-ci il fevral ayının 18-də N. Həsənzadənin 85 yaşı tamam olur.

3. ☺ Sual? N. Həsənzadənin hansı əsərlərinin adlarını çəkə bilərsiniz?

Cavab: “Pompeyin Qafqaza yürüşü”, “Atabəylər”, “Zümrüd quşu”, “Bütün Şərq bilsin” və s.

4. ☺ Sual? N. Həsənzadənin hansı uşaq şeirlərinin adlarını çəkə bilərsiniz?
5. Cavab: Şeytan qız, Ay Xanım, gəl oynayaq, Heç nə istəməyən qız, Uşaqlar, Yoxa çıxan yeddi yaylıq dastanı, Xatirə, Dişləri mırıq, düyməsi qırıq, şalvarı qısa, qardaşım İsa, Yuxuda aglatdılar. və s.

İndi isə gəlin birlikdə gozəl şairimiz N. Həsənzadənin uşaqlar üçün yazdığı “Yuxuda ağlatdılar” şeirini oxucuların ifasinda dinləyək .

**Nazim getdi yatmağa,**
**Bal yuxuya batmağa,**
**yuxularda qaçmağa,**
**nağıllarda uçmağa.**
**Məlikməmməd dalınca,**
**Qorxaq Əhməd dalınca.**
**Tək səfərə çıxmağa,**
**Qılınc, qalxan taxmağa.**
**Cırtdan ilə görüşə,**
**Divlər ilə döyüşə.**

**Oyuncaqlar gəldilər,**
**Yuxusuna girdilər.**
**Dovşanın qulağı yox,**
**Dəvənin ayağı yox.**
**Ayı çənəsiz gəlib,**
**Xoruz çarəsiz gəlib,**
**Atın başı itdədi,**
**Itin başı atdadı.**
**Kosmonavt çılpaq qalıb,**
**Nə o, nə bu sağ qalıb.**
**Dovşan dedi: qulaq ver!**
**Dəvə dedi: ayaq ver!**
**Ayı dedi: çənə tap!**
**Xoruz dedi: çarə tap!**
**At başını istədi.**
**Kosmonatv dedi: paltar!**
**Hamısı dedi: qaytar!!!**

**Məlikməmməd eşitdi,**
**Qorxaq Əhməd eşitdi.**
**Nazimdən küsdü Cırtdan**
**Divlər buynuzlu gəldi,**
**küsdü qılınc və qalxan.**
**sonra toppuzlu gəldi,**
**Yuxuda ağlatdılar.**
**Nazimi oyatdılar.**

N. Həsənzadə yaradıcılığının əsas meyarlarından biri də müasirlikdir. Şair Azərbaycan tarixinin qədim dövrlərinə müraciət edəndə də, orta əsrlərdən, XIX əsrdən, XX əsrin

əvvəllərindən danışanda da olduqca müasirdir, olduqca bu günün şairidir.

N. Həsənzadə bir çox uğurlu poemaları ilə də həmişə yadda qalır. Onların sırasında "Nəriman", "Heybədə gəzən şeir", "Vətənsiz", "Şahid ol, günəş", "Rəsul Həmzətova məktub", "Kimin sualı var" poemaları və digər iri həcmli əsərləri öz dərin məndərəcəsi, poetik vüsəti etibarilə oxucu qəlbində isti yuva salır.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərin içərisində ən çox sevilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsini keçirməkdə məqsədimiz oxucuları kitaba, poeziyaya marağı daha da artırmaqdır. Belə tədbir kitabxanada tez-tez təşkil olunur və bu tədbir rayon kitabxanarı üçün tövsiyyə xarakteri daşıyır. Kitab müzakirəsinə tənqidçiləri, ədəbiyyatşünasları, şair və yazıçıları və kitabxana əməkdaşlarını dəvət etmək olar. Kitabxanaçı tədbirə gələn qonaqları salamlayır.

Biz bu gün N. Həsənzadə poeziyasinin işığına toplaşmışıq. Bu gün "Nabat xalanın çörəyi" adlı əsər haqqında danışacağıq. Bu əsər kitab halında da bir neçə dəfə nəşr olunmuşdur. Birinci nəşr 1974-cü ildə Gənclik nəşriyyatı tərəfindən, ikinci nəşr 1986-cı ildə yenə də Gənclik nəşriyyatı tərəfindən çap olunmuşdur. Məhz bu kitaba elə bu nəsr əsəri daxil edilmişdir. Əsər üç hissədən ibarətdir.

Ana müqəddəsdir, ana uludur! Əsərdə müəllif Azərbaycan qadınının övlad məhəbbətini, onun mənəvi gözəlliyini və keçirdiyi iztirabları poetik boyalarla qələmə almışdır. Kitabda bir elə arxa, bir elə ana olan ər qeyrətli bir qadından Nabat xaladan məhəbbətlə söhbət açılır. Nabat

xalanın bişirdiyi isti çorəklərin ətri bərəkətli zəmilərimizin ətri kimi ümumiləşdirilmişdir ki, bu geniş, vətən torpağımıza dərin məhəbbət hissi aşılayır. Əsəri oxuduqca siz onun "xamralı çörəyi"nin ətrini duya-duya maraqlı, ibrətamiz hekayətlərini dinləyəcək, Qiyamla, Fərəhlə bərabər qəlbinizdə bu anaya möhtəşəm bir heykəl də ucaldacaqsınız-Əbədiyyət heykəli!

Xalq şairi N. Həsənzadənin yubileyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Belə tədbirləri xatirə gecəsi də adlandırmaq olar. Ədəbi-bədii gecənin keçirilməsində məqsədimiz oxucuları xalq şairi N. Həsənzadənin yaradıcılığı ilə tanış etmək, şairin şeirlərinə, hekayə və povestlərinə diqqəti artırmaqdır.

Ədəbi-bədii gecə əsasən iki hissədən ibarət olur. Kitabxanaçı belə tədbirlərə iki ay qabaqcadan hazırlaşmalı, tədbirdə iştirak edəcək qonaqları əvvəlcədən müəyyənləşdirməlidir. Tədbirə kitabxanaçı şair və yazıçılarla yanaşı ədəbiyyat müəllimlərini, tənqidçiləri, jurnalıstləri və oxucuları dəvət edə bilər. Tədbirin ədəbi hissəsi çıxış və məruzələrlə başlayır. Tədbirdə iştirak edən qonaqlar N. Həsənzadənin xeyirxahlığı, nəcibliyi, mehribanlığı, dostluğu haqqında söhbət açırlar. İkinci hissə yəni bədii hissədə şairin şeirlərinə yazılmış mahnılar səsləndirilir, hekayə və povestlərindən səhnəciklər hazırlanıb göstərilir.

"İllər səndə nəyim qaldı" adlı ədəbi-bədii gecənin nümunəsini veririk. Səhnə gül dəstələri ilə bəzədilir. Şairin

portreti səhnənin divarından asılır. Aparıcılar səhnəyə daxil olur.



***“Ən yüksək vəzifə, albəttə, şairlikdir”*** ***Nəriman Həsənzadə***

***Tədbir Əminə Yusifqızının ifasında sözləri Nəriman Həsənzadəyə aid olan “Bu dünya bir nərdivandır” adlı şeirin sədaları ilə başlayır.***

**I Aparıcı:** Müasir Azərbaycan poeziyası səmasında şölə saçan parlaq ulduzlardan biri də xalqımızın görkəmli şairi Nəriman Həsənzadədir. Həssas qəlbli söz ustasının yaradıcılığını səciyyələndirən əsas cəhət əsərlərində insanpərvərlik, gözəllik, Vətənə və dünyaya məhəbbətlə dolu həyat fəlsəfəsinin təcəssümüdür. Şairin şeirləri də özü kimi sadə və səmimidir. Ömrünün uşaqlıq illəri Qazax rayonunda keçmiş, sübh tezdən günəş doğarkən üfiqin çöhrəsinin necə rəng aldığını heyranlıqla müşahidə etmiş, anası Nabat xalanın ətirli və halal çörəyi ilə böyüyüb boya-başa çatmış, qəlbi el-oba, vətən məhəbbəti ilə dolu olan bu gənci şair olmağa həyat özü şövq etmişdi. Gənc şairin ilk qələm təcrübələrindən Vaqif, Vidadi və Səməd Vurğun lirikasının ətri duyulurdu. Nəriman Həsənzadənin

tərcümeyi-halini öyrənmək üçün onun şeirini oxumaq kifayətdir:

Döyüldüm dəmir kimi,
Döyüşdə gərək oldum.
Yoğruldum xəmir kimi,
Gördülər çörək oldum.
Əkildim torpaq kimi,
Göyərdim çiçək oldum.
O qədər dandılar ki,
Axırda gerçək oldum.

**II Aparıcı:** Bəli, 1931-ci ildə Ağstafa rayonunun Poylu qəsəbəsində anadan olmuş Nəriman Həsənzadə Azərbaycan Yazıçılar İttifaqının üzvü (1954), Filologiya elmləri namizədi (1965), Azərbaycanın Əməkdar incəsənət xadimi (1981), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990-1995), Azərbaycanın Xalq şairi (2005), “İlin şairi” mükafatı laureatı (2010), şair-dramaturq olmaq üçün uzun, keşməkeşli, təzadlı həyat və yaradıcılıq yolu keçib. Onu dananlar da olub, yaxşı kitabını pisləyənlər də olub. Lakin Nəriman Həsənzadə öz yolundan, öz amalından dönməyib, yazıb-yaradıb, öz bədxahlarına yeni-yeni kitablarla, pyeslərlə, dillər əzbəri olan mahnılarla cavab verib. Yaxşı deyiblər ki, şairin ən kəskin silahı onun yaxşı əsərləridir. Bu silah Nəriman Həsənzadəni həmişə üzü ağ, alnı açıq edib, onu təzadlı yollardan uğurla çıxarıb.

Niyə ağrıyırsan,
          Nədir möhnətin,
Nəğməsi dilimdə
          Qalan ürəyim?

Ey məni buz bilib
Yola getməyən,
Ey məni odlara
salan ürəyim.
Göz doymur dünyadan,
Bu tamaşadan,
Bir yerdə vursaydıq
ömrü baştan.
Ey mənim sinəmdə
məni yaşadan,
Ey mənim əlimdə
ölən ürəyim.

Nəriman Həsənzadəni, adi bir dəmirçi oğlunu xalqın sevimlisinə çevirən onun sadiq şair ürəyi olmuşdur. 1953-cü ildə Gəncə Pedaqoji İnstitutunu bitirən, unudulmaz xalq şairimiz Səməd Vurğunun zəmanəti ilə Yazıçılar İttifaqına qəbul edilən şair Moskvada, M. Qorki adına Ədəbiyyat İnstitutuna daxil olur. Təhsil illərində onun şeir və poemaları Ümumittifaq mətbuatında dərc edilir, şairə şöhrət qazandırır.

1965-ci ildə Nəriman Həsənzadə müvəffəqiyyətlə dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi, alimlik dərəcəsi alır. Şairliyi alimliyini, alimliyi isə şairliyini tamamlayır.

Bir-birinin ardınca şairin "Qiz ürəyi", "Niyə demədiniz ?", "Kimin sualı var?", "Seçilmiş əsərlər", "Bir az möhlət istəyirəm ömürdən", "Mənim nigahımı pozdu təbiət" və s. kitabları nəşr edilir. Bu kitabların bəziləri respublikamızın, ölkəmizin hüdudlarını adlayaraq dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilir.

**I Aparıcı:** Nəriman Həsənzadənin yaradıcılığında dramaturgiya əsas yer tutur. Onun “Atəbəylər”, “Bütün Şərq bilsin”, “Nabat xalanın çörəyi”, “İmzalar içində”, “Kimin sualı var?” pyesləri respublikamızın müxtəlif teatrlarında müvəffəqiyyətlə tamaşaya qoyulub. “Bütün Şərq bilsin” əsəri Mayakovski adına Moskva Dövlət Akademik Teatrında uğurla göstərilib, mükafata layiq görülüb.

Nəriman Həsənzadəni haqlı olaraq “nəgməkar şair” adlandırırdılar. Respublikamızın görkəmli bəstəkarları onun şeirlərinə çoxlu mahnılar bəstələyiblər. Bu da təsadüfü deyil. Çünki şairin şeirlərində gözəl bir musiqi var. Daha doğrusu, onlar öz-özlüyündə bəstəsiz mahnılardır.

Ay sevgilim çağır məni,
Gəlim sizə qonaq olum.
Əsim səhər mehi kimi,
Saçında daraq olum.

Oxucular səhnəyə daxil olur. N. Həsənzadənin “Cəbhə bayatılarından” bir neçəsini söyləyirlər.

**I Oxucu:** Oxuma, sarı bülbül,
Itirdim yarı bülbül.
Burda mən qərib oldum,
Şuşada Xarı bülbül.

Xocalıdan gələn var,
Ağlayan var, gülən var.
Bakıda toy qurmayın,
Xocalıdan ölən var.

**II Oxucu:** Yol gəlir Qubadlıdan
Xəbər alın atlıdan.
Nəbi, Həcər hardadı?
İtdi namus, batdı qan.

İgidlər ölməsinlər,
Ayrılıq görməsinlər.
Siz yerə tikiş qoyun,
Torpağı bölməsinlər.

Nəriman Həsənzadə dünyanın hansı qitəsində olursa-olsun, planetimizin hansı ölkəsində ədəbi simpoziumlarda, poeziya məclislərində iştirak edirsə-etsin, sinəsində həmişə azərbaycanlı ürəyi döyünür. O, Yuqoslaviya, İtaliya, Fransa, İran, Türkiyə, Hindistan, Belçika və başqa ölkələrə səfərləri zamanı özü ilə bərabər Azərbaycan torpağının hərarətini aparıb. Biz onun şeir və poemalarında bu torpağın odunu, alovunu, əsrarəngsiz təbiətinin genişürəkliliyini və s. görürük.

Bəli, xalq öz şairini sevir, onun yaradıcılığını yüksək qiymətləndirir. Yaxşı deyiblər ki, torpağa bağlı olanları torpaq ucaldır.

**Ürək eşitsin...**

Sözün nə ucası, nə alçağı var,
əziz dost, şeirimi asta oxu sən.
Səs-küylə özünə əl çaldıranlar,
Səssiz-küysüz çıxır sonda cərgədən.

Fikir ver misraya, adi sözə də,
Duyan kəs səssiz də gərək eşitsin.
Sıxılma, qulağın eşitməsə də,
Ürəyində oxu, ürək eşitsin...

Bilmirəm bir ömür yaşamışammı?
Ya heç yaşamağa başlamışammı?
Bəlkə yüz ilim var, hələ qabaqda,
Bəlkə bircə həftə qalib o vaxta?!
Deyirlər söz qalır dünyada yalnız,
Biz gəldi-gedərik qalan hamımız.
Deyə bilmişəmmi qalan söz olsun,
Adımla çəkilən filan söz olsun!..

Nəriman Həsənzadə içində Azərbaycan harayı olan şairdir. O, vətənə üz tutaraq övladı kimi öz məhəbbətini belə dilə gətirir: "Ruhum mənim, laylam mənim, Azərbaycan!"

Dövlət müstəqilliyimizi qazandıqdan sonra şairin yaradıcılığında vətənlə bağlı nisgilli şeirlərin sayı daha da çoxaldı. Bədnam qonşularımız tərəfindən torpaqlarımız işgal edildi, vətən oğulları azadlıq yolunda şəhidlik zirvəsinə yüksəldi.

Səhnəyə matəm libası geyinmiş oxucular daxil olur. N. Həsənzadənin "Şəhidlər xiyabanı" adlı şeirini söyləyirlər.

I Oxucu: Dayanın, Şəhidlər xiyabanıdı,
Yas toya qarışıb, toy yasa burda.
Qızıl qumaşlarda qara xonçalar,
nişan gətiriblər bir qıza burda.

Nigaran gedənlər yatır xəbərsiz,
yatağı boş qalıb, atı yəhərsiz.
Ana var, ogulsuz, gəlin var ərsiz,
nəydi bu müsibət, bu cəfa burda?

Qızıl qan ləkəsi qalır gül üstə,
bir qurğu qurdular fitnə-fel üstə.
İl təhvil olubdu qərənfil üstə,
verib öz yerini qış yaza burda.

II Oxucu: Kim bilir, nə qədər ölən-qalan var,
Vətəndə bir vətən şəhid olan var.
Hələ bir-birini xəbər alan var,
dil yox, sual verir, göz-gözə burda.

Şəhriyar əlində bir əsa gəlsin,
Çağırın Babəki bu yasa gəlsin.
Qısas istəyəni qisasa gəlsin,
Yer özü çağırır qisasa burda.

Bir yandan məğrurluq, bir yandan həya,
Yası bir boyadı, toyu bir boya.
Neçə Koroğlular gəldi dünyaya,
cavan Babək yatır, hardasa burda.

Kim belə qarğadı bu bağça-bağa,
Qaralar bağlanıb min bir budağa.
Sürtüb ağ saçını qara torpağa,
dəyməyin, Nəriman aglasa burda.

**II Aparıcı:** Mövzu müxtəlifliyi, insan arzularının, cəmiyyət həyatının və zəmanənin çoxcəhətli zəngin boyalarla işlənməsi hər bir poetik əsərin məziyyətidir. Nəriman Həsənzadə poeziyası bu cəhətdən oxucuda dərin maraq oyadan poeziyadır. İdeala, gözəlliyə, mənəvi saflığa sadiq olan, insanlıq və vətəndaşlıq hisslərini şeirlərinin canına hopduran bu şair daima axtarışdadır, onun poetik fikri yorulmaq bilmir, oxucuya arasıkəsilmədən yeni əsərlər təqdim edir.

Oxucular səhnəyə daxil olur N. Həsənzadənin "Ürək" şeirini söyləyirlər.

Qələm əlimdədir, danışmır ürək,
Bu nədir, elə bil heç mən deyiləm.
Görəsən nə üçün alışmır ürək,
Yoxsa şairliyə vida deyirəm?

Gözlərim görməsin bircə o günü,
Dəftəri açmamış, sinəmi açım.
Bilsəm susdugumu, ya söndüyümü
Sətrim qəbrim olar, nidam baş daşım!

Elə oturmuşam, deyərsən buzam,
Bir soyuq meh dəyir üzümə hərdən.
Düzü nə yorğunam, nə yuxusuzam
Nə oldu, bəs mənə nə oldu birdən?

Ağardı saçlarım başımda tək-tək,
Görünən dağlara çatıb aşıram.
Bundan tutulmusan bəlkə, ay ürək?

Bəlkə görübsən ki, başqalaşıram?

Ağ güllər bitirir bu qara torpaq,
Hələ ki, qaradır yal-yamacları.
Əvvəl ağ saçları  sayırdım, ancaq
İndi də sayıram qara saçları.

Qoy başım ağarsın, qınamaz heç kim,
Təki deməsinlər əsərsiz oldu.
Bədənim od tutub, yanır ürəyim,
De, niyə sən bundan xəbərsiz oldun?

Səni gözləmişəm əlimdə qələm,
Əsibdi ruhuma sərin bir külək.
Sən gizli yanmısan, mən bilməmişəm,
Qələmi götürdən sənmişsən demək.
Nə yaman qorxuzdun məni ay ürək...

Bəli, hazırda hörmətli şairimiz N. Həsənzadə yaradıcılığının ən gözəl çağlarını yaşayır. Yaşı 85-ə çatsa da ürəyi hələ də cavandır. Yaratmaq eşqi, əzmi aşıb-daşır. Onun yaradıcılığı yuxarıda qeyd etdiyimiz kimi hərtərəfli və zəngindir. Sonda Nəriman Həsənzadəyə 100 il ömür arzulayırıq. Arzulayırıq ki, N. Həsənzadə yeni-yeni əsərlərilə bizi sevindirsin, yaşayıb- yaratsın.

**S O N**

# ƏDƏBİYYAT SİYAHISI:

**Həsənzadə. N.** Seçilmiş əsərləri : Poeziya. - Bakı : Şərq-Qərb, 2004. - 336 s.
**Həsənzadə. N.** Bir az möhlət istəyirəm ömürdən : Şeirlər və poemalar. B. : Yazıçı, 1981. - 454 s.
**Həsənzadə. N.** Gəlimli-gedimli dünya. B.: Şərq-Qərb, 1995.-313 s.
**Həsənzadə. N.** Heç nə istəməyən qız : Şeirlər. B. : Gənclik, 1993. - 50 s.
**Həsənzadə. N.** İllər, səndə nəyim qaldı. B.: Yazıçı, 1991.-300 s.
**Həsənzadə. N.** Qoca çobanın hekayəti. - Bakı : Uşaqgəncnəşr, 1960. - 30 s.
**Həsənzadə. N.** Mənim gecəm gündüzüm : Şeirlər və poemalar – B. : Gənclik, 1973. - 235 s.
**Həsənzadə. N.** Mənim nigahımı pozdu təbiət : Şeirlər. B.: Yazıçı, 1989. – 332 s.
**Həsənzadə. N.** Nabat xalanın çörəyi : Povest - Bakı : Gənclik, 1986. - 184 s.
**Həsənzadə. N.** Nəriman : Epik-dramatik poema. B. : Yazıçı, 1978. - 196 s.
**Həsənzadə. N.** Niyə demədiniz : Şeirlər . – B.: Gənclik, 1970. - 131 s.
**Həsənzadə. N.** Nizami. (Müasirim haqqında poema). B.: Şirvannəşr, 2009.-96 s.
**Həsənzadə. N.** Pomleyin Qafqaza yürüşü : - B. : Azərbaycan Ensiklopediyası, 1995. - 62 s.
Gənclik, 1976. - 142 s.
**Həsənzadə. N.** Poylu-beşiyim mənim : Poylu eposu 2007.
**Həsənzadə. N.** Sən bağışladın : Şeirlər və poemalar. B. : Gənclik, 1979. – 152 s.
**Həsənzadə. N.** Zümrüd quşu : Epik-dramatik poema. Bakı : 144 s.

**Nəriman Həsənzadənin 85 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Kompyuter yığımı**
**və dizayn:** ***Könül Səmədzadə***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:19.01.2016
Tirajı:100
Pulsuz